## Dövlət Statistika Komitəsində "Kənd təsərrüfatı siyahıyaalması" mövzusunda seminar keçirilmişdir



2015-ci il üçün metodoloji və məlumat istifadəçiləri ilə iş planının icrası ilə əlaqədar olaraq 29 may 2015-ci il tarixində Dövlət Statistika Komitəsinin inzibati binasında Aparatın Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsinin təşkilatçılığı ilə 2015-ci ilin iyun ayında ölkəmizdə keçiriləcək "Kənd təsərrüfatı siyahıyaalması" mövzusunda seminar keçirilmişdir. Seminarda Kənd Təsərrüfatı Nazirliyinin, İqtisadiyyat və Sənaye Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun, Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm Mərkəzinin mütəxəssisləri iştirak etmişlər.



Seminarda Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsi müdirinin müavini Malik Heydərov və Komitənin kənd təsərrüfatı üzrə eksperti Seyfəddin Yusifov ümumi kənd təsərrüfatı siyahıyaalınması barədə seminar iştirakçılarına geniş məlumat vermişlər. Belə ki, kənd təsərrüfatı siyahıyaalmasının keçirilməsi zərurəti, müxtəlif dünya ölkələrində keçirilmiş kənd təsərrüfatı siyahıyaalmaları ilə bağlı beynəlxalq təcrübə, 2005-ci ildə keçirilmiş kənd təsərrüfatı siyahıyaalmasının təcrübəsi, qarşıda duran siyahıyaalma ilə bağlı görülmüş işlər, siyahıyaalmanın proqram təminatı, siyahıya alınacaq respondentlər-təsərrüfatlar və müəssisələr barədə, 1 və 2 nömrəli siyahıyaalma vərəqələrinin məzmunu və əhatəliliyi, siyahıyaalmada iştirak edəcək işçi qrupları və onların üzərinə düşən öhdəliklər, həmçinin siyahıyaalmanın yekunları ilə bağlı görülməsi nəzərdə tutulan tədbirlər barədə geniş məruzə ilə çıxış edilmişdir.

Tədbirin sonunda seminar iştirakçılarının qeyd edilən məsələlərlə bağlı yaranmış sualları diskussiya edilərək cavablandırılmışdır.

